**XƏZƏR UNİVERSİTETİNİN**

**ELMİ-TƏDQİQAT STRATEGİYASI**

Elmi Şuranın 29.02.2024 cü il tarixli

3/23-24 saylı iclasının qərarı ilə təsdiq olunub.

2024-2028

**MÜNDƏRİCAT**


1. Giriş....................................................................................................3
   1.1. Strateji baxış.......................................................................................3
   1.2. Fəaliyyət məqsədi...............................................................................4
2. Strateji məqsədlər........................................................................................5
   2.1. Tədqiqat keyfiyyətinin artırılması.......................................................5
   2.2. Maliyyələşmənin gücləndirilməsi.......................................................5
   2.3. İnterdisiplinar tədqiqatların inkişafı....................................................6
   2.4. İnsan kapitalının inkişafı.....................................................................7
   2.5. İnnovasiya və kommersiyalaşdırma....................................................8
3. Prioritet tədqiqat sahələri.............................................................................9
4. İnfrastrukturun inkişafı...............................................................................11
5. Beynəlxalq əməkdaşlıq..............................................................................12
6. İcra və monitorinq mexanizmləri...............................................................13
7. Risklərin idarə olunması.............................................................................13

# 1. Giriş

Bu sənəd Xəzər Universitetinin elmi-tədqiqat fəaliyyətinin strateji istiqamətlərini müəyyən edən əsas sənəd olmaqla, universitetin elmi potensialının sistemli şəkildə inkişaf etdirilməsini və bu fəaliyyətin Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf prioritetləri ilə uzlaşdırılmasını təmin etmək məqsədilə hazırlanmışdır.

Sənəd, xüsusilə Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər sənədində müəyyən edilmiş hədəfləri nəzərə alaraq, elmi tədqiqatların milli inkişaf məqsədlərinə inteqrasiyasını və onların praktik nəticələrə yönəldilməsini əsas prioritet kimi müəyyən edir. Bu kontekstdə Xəzər Universiteti yalnız akademik bilik istehsal edən qurum deyil, həm də dövlətin inkişaf strategiyalarının həyata keçirilməsində fəal iştirak edən tədqiqat universiteti fəaliyyət göstərir.

## 1.1 Strateji baxış

Universitetin strateji baxışı beynəlxalq akademik mühitdə tanınan, elmi yeniliklərin yaradılmasına və yayılmasına töhfə verən, innovativ yanaşmalar əsasında formalaşmış və yüksək təsir gücünə malik tədqiqat ekosisteminin inkişaf etdirilməsinə yönəlmişdir. Bu baxış çərçivəsində Universitet yalnız elmi biliklərin istehsalçısı kimi deyil, həm də həmin biliklərin cəmiyyətin inkişafına, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə və dövlət siyasətinin formalaşmasına inteqrasiya olunmasında fəal iştirak edən strateji akademik müəssisədir.

Universitet uzunmüddətli perspektivdə bilik əsaslı iqtisadiyyatın formalaşmasına davamlı töhfə verən, qlobal elmi-tədqiqat məkanına tam inteqrasiya olunmuş, həm regional, həm də beynəlxalq səviyyədə aparıcı elmi-tədqiqat institutlarından birinə çevrilməyi əsas hədəf kimi müəyyən edir. Bu məqsəd elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi, tədqiqat potensialının gücləndirilməsi və innovasiya yönümlü yanaşmaların genişləndirilməsi vasitəsilə reallaşdırılır.

Eyni zamanda, bu strateji baxış ölkənin sosial-iqtisadi inkişaf prioritetləri ilə sıx şəkildə əlaqələndirilmişdir. Belə ki, Universitet rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasına, yüksək ixtisaslı elmi və tədqiqat kadrlarının yetişdirilməsinə, innovativ texnologiyaların inkişafına və tətbiqinə, eləcə də dayanıqlı inkişaf prinsiplərinə əsaslanan sosial-iqtisadi transformasiyanın təmin olunmasına töhfə verməyi qarşısına məqsəd qoyur. Bu yanaşma həm milli inkişaf strategiyaları ilə uyğunluq, həm də beynəlxalq elmi tendensiyalara inteqrasiya baxımından sistemli və davamlı inkişaf modelini əks etdirir.

Universitetin elmi nüfuzunun artırılması və beynəlxalq akademik məkanda tanınmasının gücləndirilməsi məqsədilə Xəzər Universitetində nəşr olunan elmi jurnalların aparıcı beynəlxalq indeksləşmə bazalarına daxil edilməsi prioritet istiqamətlərdən biri kimi müəyyən edilir. Bu istiqamətdə fəaliyyətlər sistemli və mərhələli şəkildə həyata keçiriləcəkdir.

## 1.2. Fəaliyyət məqsədi

Universitetin elmi-tədqiqat fəaliyyəti akademik dürüstlük, elmi etika və beynəlxalq standartlara uyğunluq prinsipləri əsasında formalaşan, yüksək keyfiyyətli və nəticəyönümlü tədqiqat mühitinin inkişaf etdirilməsinə yönəlmişdir. Bu fəaliyyətin əsas məqsədi elmi biliklərin sistemli şəkildə istehsalı, inkişaf etdirilməsi və genişləndirilməsi ilə yanaşı, onların tədris prosesinə inteqrasiyası və sosial-iqtisadi inkişafın müxtəlif sahələrində tətbiqinin təmin edilməsidir.

Bu çərçivədə Xəzər Universiteti elmi tədqiqatları institusional inkişafın strateji komponenti kimi qəbul edərək, innovativ və orijinal biliklərin yaradılmasını prioritet istiqamət kimi müəyyən edir. Əldə edilən elmi nəticələrin universitetin tədris ekosisteminə effektiv inteqrasiyası təmin olunmaqla, təhsil prosesinin müasir elmi yanaşmalar və metodologiyalar əsasında təkmilləşdirilməsi hədəflənir. Eyni zamanda, əldə olunan tədqiqat nəticələrinin iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, sosial inkişafın dəstəklənməsi, dövlət siyasətinin elmi əsaslarla formalaşdırılması və innovasiya yönümlü ekosistemin gücləndirilməsi məqsədilə tətbiqi təşviq olunur.

Universitet həmçinin gənc tədqiqatçıların hazırlanmasını elmi-tədqiqat strategiyasının əsas prioritetlərindən biri kimi müəyyən edir. Bu istiqamətdə yeni və müasir magistratura və doktorantura təhsil proqramları yaradılması, tədqiqat bacarıqlarının sistemli şəkildə formalaşdırılması, beynəlxalq akademik mühitə inteqrasiyanın gücləndirilməsi və elmi karyera imkanlarının genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Bütün bu fəaliyyətlər nəticə etibarilə milli və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli, yüksək ixtisaslı və innovativ tədqiqat bacarıqlarına malik insan kapitalının formalaşdırılmasına, eləcə də Azərbaycanın bilik əsaslı iqtisadiyyat modelinə keçid prosesinin elmi əsaslarla dəstəklənməsinə xidmət edir.

## 2. Strateji məqsədlər

### 2.1. Tədqiqat keyfiyyətinin artırılması

Xəzər Universiteti elmi-tədqiqat fəaliyyətinin keyfiyyətinin yüksəldilməsini universitetin strateji inkişafının əsas istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu yanaşma elmi fəaliyyətin beynəlxalq akademik mühitə inteqrasiyasının gücləndirilməsini, tədqiqat nəticələrinin qlobal elmi mühitə yayılmasını və universitetin elmi fəaliyyətininin dünyada tanınmasını əsas hədəflər kimi nəzərdə tutur. Xüsusilə, universitet beynəlxalq indekslənən (Scopus, Web of Science və digər nüfuzlu elmi bazalarda yer alan) elmi jurnallarda nəşrlərin həm kəmiyyət, həm də keyfiyyət baxımından artırılmasına sistemli şəkildə diqqət yetirir və bu istiqamətdə akademik heyətin elmi fəaliyyətinin stimullaşdırılmasını qarşıya məqsəd qoyur.

Bu məqsədə nail olmaq üçün elmi fəaliyyətin qiymətləndirilməsində şəffaflıq, obyektivlik və ölçüləbilənlik prinsiplərinə əsaslanan inteqrasiyalı qiymətləndirmə sisteminin tətbiqi nəzərdə tutulur. Həmin sistem akademik heyətin tədqiqat məhsuldarlığının, elmi nəticələrinin təsir gücünün və beynəlxalq əməkdaşlıq göstəricilərinin sistemli şəkildə monitorinqinə və təhlilinə imkan yaradacaqdır. Bununla yanaşı, tədqiqat fəaliyyətinin idarə olunmasında nəticəyönümlü yanaşmanın tətbiqi universitetin ümumi elmi strategiyasının səmərəliliyini artırmağa xidmət edəcəkdir.

Eyni zamanda, universitet akademik dürüstlük və elmi etika prinsiplərinin qorunmasını fundamental prioritet kimi müəyyən edərək, plagiatın qarşısının alınması üzrə qabaqlayıcı mexanizmlərin gücləndirilməsini və beynəlxalq standartlara uyğun etik normaların tətbiqini təmin etməyi hədəfləyir. Bu istiqamətdə müvafiq nəzarət və qiymətləndirmə mexanizmlərinin institusional səviyyədə təkmilləşdirilməsi nəzərdə tutulur.

### 2.2. Maliyyələşmənin gücləndirilməsi

Xəzər Universiteti elmi-tədqiqat fəaliyyətinin davamlılığının və rəqabətqabiliyyətliliyinin təmin olunması üçün maliyyə resurslarının genişləndirilməsini və dayanıqlı maliyyələşmə mexanizmlərinin formalaşdırılmasını strateji prioritetlərdən biri kimi müəyyən edib. Bu yanaşma tədqiqat fəaliyyətinin yalnız mövcud resurslara əsaslanmamasını, eyni zamanda müxtəlif daxili və xarici maliyyə mənbələrinin sistemli şəkildə cəlb edilməsini nəzərdə tutur.

Bu məqsədlə universitet dövlət və beynəlxalq qrant proqramlarında iştirak imkanlarını genişləndirməyi, beynəlxalq donor təşkilatları və fondlarla əməkdaşlığı gücləndirməyi planlaşdırır. Bununla yanaşı, özəl sektorla strateji tərəfdaşlıqların qurulması, sənaye yönümlü tədqiqat layihələrinin həyata keçirilməsi və müqavilə əsasında tədqiqat fəaliyyətinin təşviqi universitetin maliyyə dayanıqlığının artırılmasına xidmət edəcəkdir. Bu istiqamətdə universitet-sənaye əməkdaşlığının institusional mexanizmlərinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Universitet daxilində tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə daxili maliyyələşmə mexanizləri, o cümlədən tədqiqat fondlarının yaradılması nəzərdə tutulur. Bu mexanizlər yeni və perspektivli tədqiqat təşəbbüslərinin yaranmasına, xüsusilə erkən mərhələdə olan layihələrin dəstəklənməsinə və onların sonrakı mərhələlərdə daha iri qrantlara çıxış imkanlarının genişləndirilməsinə şərait yaradacaqdır.

Eyni zamanda, elmi nəticələrin kommersiyalaşdırılması və iqtisadi dəyərə çevrilməsi məqsədilə texnologiya transferi və innovasiya fəaliyyətinin maliyyə dəstəyi mexanizmlərinin inkişaf etdirilməsi planlaşdırılır. Bu çərçivədə universitet startap təşəbbüslərinin dəstəklənməsi, sənaye ilə birgə innovativ layihələrin həyata keçirilməsi və tətbiqyönümlü tədqiqatların genişləndirilməsi vasitəsilə elmi fəaliyyətin real sektora inteqrasiyasını gücləndirməyi hədəfləyir.

Beləliklə, maliyyələşmənin gücləndirilməsi üzrə həyata keçiriləcək tədbirlər universitetin elmi-tədqiqat potensialının genişləndirilməsinə, maliyyə dayanıqlığının təmin olunmasına və elmi fəaliyyətin ümumi effektivliyinin artırılmasına kompleks şəkildə xidmət edəcəkdir

## 2.3. İnterdisiplinar tədqiqatların inkişafı

Müasir dövrdə qarşıya çıxan sosial, iqtisadi və texnoloji problemlər getdikcə daha mürəkkəb xarakter daşıdığından, onların effektiv həlli yalnız bir elmi sahənin çərçivəsində mümkün olmur. Bu səbəbdən müxtəlif elmi istiqamətlərin bilik və metodlarının birləşdirilməsi, yəni interdisiplinar yanaşmanın tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Xəzər Universiteti bu reallığı nəzərə alaraq interdisiplinar tədqiqatların inkişafını elmi-tədqiqat strategiyasının əsas prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir.

Universitet bu istiqamətdə müxtəlif fakültələr, kafedralar və tədqiqat qrupları arasında əməkdaşlığın genişləndirilməsini və institusional səviyyədə dəstəklənməsini hədəfləyir. Məqsəd fərqli ixtisas sahələrindən olan alim və mütəxəssislərin birgə fəaliyyəti vasitəsilə daha geniş və

kompleks problemlərə sistemli yanaşmanın təmin edilməsidir. Bu əməkdaşlıq çərçivəsində birgə tədqiqat layihələrinin hazırlanması, ortaq elmi proqramların həyata keçirilməsi və multidissiplinar tədqiqat mühitinin formalaşdırılması nəzərdə tutulur.

İnterdisiplinar yanaşmanın tətbiqi xüsusilə tətbiqyönümlü və praktiki əhəmiyyət daşıyan sahələrdə mühüm rol oynayır. Bu baxımdan Xəzər Universiteti yaşıl enerji və ətraf mühitin qorunması, rəqəmsal transformasiya və informasiya texnologiyaları kimi istiqamətlər üzrə birgə tədqiqatların həyata keçirilməsini prioritet hesab edir.

Bu yanaşma nəticə etibarilə həm elmi tədqiqatların keyfiyyətinin artırılmasına, həm də onların real problemlərin həllinə yönəldilməsinə xidmət edir. Eyni zamanda, interdisiplinar tədqiqatların inkişafı universitetdə innovativ düşüncə tərzinin formalaşmasına, yeni elmi istiqamətlərin yaranmasına və beynəlxalq elmi əməkdaşlıqların genişlənməsinə əlverişli zəmin yaradır.

## 2.4. İnsan kapitalının inkişafı

İnsan kapitalının inkişafı Xəzər Universitetinin strateji fəaliyyətinin əsas istiqamətlərindən biri olmaqla, universitetin elmi-tədqiqat potensialının gücləndirilməsində həlledici rol oynayır. Müasir dövrdə yüksək ixtisaslı tədqiqatçıların və innovativ düşüncəyə malik kadrların hazırlanması universitetin əsas prioritetlərindən biridir. Bu baxımdan insan kapitalının inkişafı yalnız təhsil prosesinin tərkib hissəsi kimi deyil, eyni zamanda universitetin elmi və institusional inkişafının əsas dayağı kimi qiymətləndirilir.

Xəzər Universiteti yüksək ixtisaslı tədqiqatçıların hazırlanmasını təmin etmək məqsədilə magistratura və doktorantura proqramlarının keyfiyyətinin artırılmasını prioritet istiqamət kimi müəyyən etmişdir. Bu proqramların məzmununun beynəlxalq standartlara uyğunlaşdırılması, tədqiqat yönümlü tədris mühitinin gücləndirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda, doktorantların və gənc tədqiqatçıların beynəlxalq elmi şəbəkələrə inteqrasiyası və nüfuzlu elmi platformalarda iştirakının təşviqi xüsusi əhəmiyyət kəsb edir. Bu çərçivədə Xəzər Universiteti dövlət proqramı vasitəsilə xaricdə doktorantura təhsili alan namizədlərə dəstək məktubları təqdim etməklə, onların təhsilini uğurla başa vurduqdan sonra universitetdə müvafiq ixtisas üzrə pedaqoji və elmi fəaliyyətə cəlb olunmalarına razılığını verir və bununla da yüksək ixtisaslı kadrların ölkəyə cəlb olunmasına töhfə verir.

Akademik heyətin peşəkar inkişafının təmin olunması da insan kapitalının inkişafının mühüm tərkib hissəsidir. Bu istiqamətdə davamlı peşəkar inkişaf proqramlarının təşkili, müasir tədris və tədqiqat metodlarının mənimsənilməsi, beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsi və akademik mobilliyin təşviqi planlaşdırılır. Universitet öz akademik və inzibati heyətinin peşəkar bilik və bacarıqlarının artırılması məqsədilə mübadilə proqramları vasitəsilə onların xarici ali təhsil müəssisələrində təlim və treninqlərdə iştirakını sistemli şəkildə dəstəkləyir. Eyni zamanda, xaricdə təhsil almış və beynəlxalq akademik təcrübəyə malik mütəxəssislərin cəlb edilməsi təşviq olunmaqla, akademik mühitin keyfiyyətinin yüksəldilməsi və qlobal elmi standartlara uyğunluğun təmin olunması hədəflənir.

Bununla yanaşı, gənc tədqiqatçıların elmi fəaliyyətə marağının artırılması və onların motivasiyasının gücləndirilməsi məqsədilə müxtəlif stimullaşdırıcı mexanizmlərin tətbiqi nəzərdə tutulur. Bu mexanizmlərə elmi fəaliyyətə görə mükafatlandırma sistemləri, qrant imkanlarına çıxışın genişləndirilməsi, akademik karyera inkişafının dəstəklənməsi və tədqiqat təşəbbüslərinin təşviqi daxildir.

Bütün bu tədbirlər uzunmüddətli perspektivdə güclü, dayanıqlı və rəqabətqabiliyyətli elmi kadr potensialının formalaşmasına, universitetin beynəlxalq akademik mühitdə mövqeyin möhkəmlənməsinə və ölkənin elmi inkişafına əhəmiyyətli töhfələrin verilməsinə xidmət edəcəkdir.

## 2.5. İnnovasiya və kommersiyalaşdırma

Xəzər Universiteti elmi-tədqiqat fəaliyyətinin nəticələrinin praktiki tətbiqini və kommersiyalaşdırılmasını institusional inkişafın mühüm istiqamətlərindən biri kimi qiymətləndirir və bu prosesi elmi fəaliyyətin ayrılmaz tərkib hissəsi kimi qəbul edir. Müasir dövrdə elmi biliklərin yalnız nəzəri müstəvidə qalması deyil, onların real iqtisadi və sosial dəyərə çevrilməsi xüsusi əhəmiyyət kəsb etdiyindən, universitet bu istiqamətdə sistemli və məqsədyönlü fəaliyyətin həyata keçirilməsini prioritet hesab edir.

Bu məqsədlə Xəzər Universitetində texnologiya transferi və innovasiya fəaliyyətinin təşkili üçün müvafiq institusional mexanizmlərin yaradılması nəzərdə tutulur. Bu mexanizmlər elmi nəticələrin sənaye və biznes mühitinə ötürülməsini, onların praktik tətbiq imkanlarının genişləndirilməsini və innovativ məhsul və xidmətlərə çevrilməsini təmin etməyə yönəlmişdir. Eyni zamanda, universitet daxilində startap ekosisteminin formalaşdırılması və inkişaf etdirilməsi,

tələbə və tədqiqatçıların innovativ təşəbbüslərinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin təşviqi əsas istiqamətlər kimi müəyyən edilmişdir.

Bununla yanaşı, əqli mülkiyyət hüquqlarının qorunması və idarə olunması məsələlərinə xüsusi diqqət yetirilir. Patentləşdirmə fəaliyyətinin təşviqi, müəllif hüquqlarının qorunması və elmi nəticələrin hüquqi baxımdan təmin edilməsi universitetin innovasiya siyasətinin vacib komponentlərindən biridir. Bu yanaşma həm tədqiqatçıların motivasiyasını artırır, həm də yaradılan elmi məhsulların kommersiya potensialının effektiv reallaşdırılmasına şərait yaradır.

Universitet eyni zamanda sənaye və biznes sektoru ilə əməkdaşlığın genişləndirilməsi yolu ilə elmi nəticələrin real iqtisadi mühitə inteqrasiyasını təmin etməyi hədəfləyir. Bu çərçivədə birgə tədqiqat layihələrinin həyata keçirilməsi, müqavilə əsaslı tədqiqatların təşviqi və innovativ həllərin istehsalat proseslərinə tətbiqi nəzərdə tutulur. Beləliklə, elmi biliklərin iqtisadi dəyərə çevrilməsi, yeni texnologiyaların yaradılması və innovativ məhsulların bazara çıxarılması universitetin əsas strateji məqsədləri sırasında yer alır.

İnnovasiya və kommersiyalaşdırma sahəsində həyata keçiriləcək tədbirlər Xəzər Universitetinin elmi-tədqiqat fəaliyyətinin effektivliyinin artırılmasına, ölkədə innovasiya mühitinin inkişafına və bilik əsaslı iqtisadiyyatın formalaşmasına mühüm töhfə verəcəkdir.

## 3. Prioritet tədqiqat sahələri

Xəzər Universiteti elmi-tədqiqat fəaliyyətinin istiqamətlərini müəyyənləşdirərkən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf prioritetlərini, qlobal elmi tendensiyaları və universitetin mövcud akademik potensialını kompleks şəkildə nəzərə alır. Bu çərçivədə müəyyən edilmiş prioritet tədqiqat sahələri hazırda universitetin akademik departamentləri, fakültələri və tədqiqat qrupları və mərkəzləri tərəfindən icra olunmaqdadır. Bu yanaşma elmi fəaliyyətin milli inkişaf strategiyaları ilə uzlaşdırılmasına və onun real sektorla əlaqəsinin davamlı şəkildə gücləndirilməsinə xidmət edir.

Hazırda universitetdə süni intellekt, data elmləri və rəqəmsal texnologiyalar sahəsində tədqiqatlar aktiv şəkildə aparılır və bu istiqamətlərin institusional imkanlar genişləndikcə daha da təkmilləşdirilməsi nəzərdə tutulur. Rəqəmsal transformasiya, böyük verilənlərin analizi, kibertəhlükəsizlik, proqram təminatının inkişafı, eləcə də süni intellektin biznes proseslərində tətbiqi üzrə tədqiqatlar artıq formalaşmış elmi fəaliyyət sahələri kimi inkişaf etdirilir. Xüsusilə

biznesdə süni intellektin tətbiqi istiqamətində aparılan işlər qərarvermə mexanizmlərinin optimallaşdırılması, risklərin idarə olunması və əməliyyat səmərəliliyinin artırılması baxımından davamlı şəkildə genişləndirilir.

Robototexnika və avtomatlaşdırma sahəsində tədqiqatlar da hazırda icra mərhələsindədir və müasir sənaye və xidmət sektorlarının transformasiyasına yönəlmiş elmi fəaliyyət kimi inkişaf etdirilir. Bu istiqamətdə ağıllı sistemlərin hazırlanması, robot texnologiyalarının müxtəlif sahələrdə tətbiqi və istehsal proseslərinin avtomatlaşdırılması üzrə tədqiqatlar mərhələli şəkildə genişləndirilməkdədir.

Neyroelm sahəsində aparılan tədqiqatlar universitetin inkişaf etməkdə olan prioritet istiqamətlərindən biri kimi formalaşma mərhələsindədir. Bu sahədə insan beyni və sinir sisteminin funksional xüsusiyyətləri ilə bağlı fundamental və tətbiqi tədqiqatlar həyata keçirilir və bu fəaliyyətin gələcəkdə daha da dərinləşdirilməsi planlaşdırılır.

Yaşıl enerji və ətraf mühit sahəsində tədqiqatlar hazırda davam etdirilir və bu istiqamət universitetin əsas strateji elmi prioritetlərindən biri kimi inkişaf etdirilir. Alternativ enerji mənbələrinin öyrənilməsi, enerji səmərəliliyinin artırılması, iqlim dəyişikliklərinin təsirlərinin araşdırılması və ekoloji dayanıqlılığın təmin olunması üzrə tədqiqatlar mərhələli şəkildə genişləndirilir və gələcəkdə daha sistemli elmi platforma çərçivəsində inkişaf etdirilməsi nəzərdə tutulur.

Aqrar elmlərlə yanaşı, baytarlıq təbabəti sahəsində aparılan tədqiqatlar da hazırda icra olunma mərhələsindədir və kənd təsərrüfatının dayanıqlı inkişafına töhfə vermək məqsədi daşıyır. Bu istiqamətdə heyvan sağlamlığının qorunması, zoonoz xəstəliklərin tədqiqi və müasir baytarlıq xidmətlərinin inkişafı üzrə elmi fəaliyyətin genişləndirilməsi planlaşdırılır.

Tibbi biologiya və biotexnologiya sahəsində aparılan tədqiqatlar əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsinə yönəlmiş elmi fəaliyyət kimi davam etdirilir və bu sahənin gələcəkdə daha innovativ və tətbiqyönümlü istiqamətlərdə inkişaf etdirilməsi nəzərdə tutulur.

İqtisadiyyat və dövlət idarəçiliyi sahəsində tədqiqatlar hazırda aktiv şəkildə həyata keçirilir və iqtisadi siyasətin təhlili, dövlət idarəetməsinin səmərəliliyinin artırılması və institusional inkişaf məsələlərini əhatə edir. Bu istiqamətdə aparılan elmi araşdırmaların gələcəkdə daha geniş empirik baza və beynəlxalq müqayisəli yanaşmalarla zənginləşdirilməsi planlaşdırılır.

Təhsil və sosial innovasiyalar sahəsində tədqiqatlar müasir təhsil texnologiyalarının tətbiqi, tədris metodlarının təkmilləşdirilməsi və sosial problemlərin innovativ həll yollarının araşdırılması

istiqamətində hazırda davam etdirilir və bu sahənin gələcəkdə daha sistemli tədqiqat platformasına çevrilməsi nəzərdə tutulur.

Ümumilikdə, göstərilən prioritet sahələr üzrə aparılan tədqiqatların dövlət proqramları və milli inkişaf strategiyaları ilə əlaqələndirilməsi, eləcə də əldə olunan elmi nəticələrin praktiki tətbiq imkanlarının genişləndirilməsi Xəzər Universitetinin əsas strateji hədəflərindən biri olaraq qalır. Bu yanaşma elmi fəaliyyətin cəmiyyətin real ehtiyaclarına cavab verməsini, innovativ həllərin real sektorda tətbiqini və universitetin ölkənin elmi və iqtisadi inkişafında rolunun davamlı şəkildə gücləndirilməsini təmin edir.

## 4. İnfrastrukturun inkişafı

Elmi-tədqiqat fəaliyyətinin səmərəli, dayanıqlı və beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilməsi üçün müasir və çoxfunksiyalı infrastrukturun formalaşdırılması zəruri şərt kimi qiymətləndirilir. Xəzər Universiteti bu istiqaməti elmi-tədqiqat strategiyasının əsas komponentlərindən biri kimi müəyyən edərək, tədqiqat mühitinin maddi-texniki bazasının sistemli şəkildə gücləndirilməsini hədəfləyir.

Bu çərçivədə universitetdə müasir elmi laboratoriyaların, ixtisaslaşmış tədqiqat mərkəzlərinin yaradılması və mərhələli şəkildə inkişaf etdirilməsi planlaşdırılır. Bu laboratoriyalar süni intellekt, robototexnika, biotexnologiya, elektronika, neyroelm, yaşıl enerji, baytarlıq və digər prioritet istiqamətlər üzrə aparılan tədqiqatların daha yüksək keyfiyyətlə həyata keçirilməsinə xidmət edəcəkdir. Eyni zamanda, mövcud laboratoriya infrastrukturunun müasir avadanlıqlarla təchiz olunması və beynəlxalq standartlara uyğunlaşdırılması nəzərdə tutulur.

Universitet rəqəmsal elmi resurslara çıxışın genişləndirilməsini də prioritet istiqamət kimi müəyyən etmişdir. Bu məqsədlə beynəlxalq elmi məlumat bazalarına çıxış imkanlarının artırılması, rəqəmsal kitabxana sistemlərinin təkmilləşdirilməsi və tədqiqatların idarə olunması üçün vahid elektron platformaların tətbiqi planlaşdırılır. Bu yanaşma elmi fəaliyyətin daha effektiv təşkili və tədqiqat proseslərinin şəffaf idarə olunmasına şərait yaradacaqdır.

Bununla yanaşı, elmi-tədqiqat fəaliyyətinin institusional idarə olunmasını gücləndirmək məqsədilə tədqiqatların koordinasiyası, monitorinqi və qiymətləndirilməsi üzrə vahid idarəetmə mexanizmlərinin formalaşdırılması nəzərdə tutulur. Bu mexanizmlər universitetin elmi fəaliyyətinin strateji planlaşdırılması və resursların daha səmərəli bölüşdürülməsinə xidmət edəcəkdir.

Eyni zamanda, universitetin uzunmüddətli inkişaf strategiyası çərçivəsində vahid kampusun tikintisi planlaşdırılır. Bu kampus təhsil, tədqiqat və innovasiya fəaliyyətlərinin bir məkanda inteqrasiyasını təmin edən müasir akademik ekosistem kimi nəzərdə tutulur. Vahid kampus konsepsiyası çərçivəsində müasir tədris binaları, tədqiqat laboratoriyaları, innovasiya mərkəzləri, tələbə və akademik heyət üçün sosial infrastrukturun yaradılması planlaşdırılır. Bu yanaşma universitet daxilində sinerji effektinin gücləndirilməsinə, elmi-tədris fəaliyyətinin daha effektiv təşkilinə və beynəlxalq akademik mühitə inteqrasiyanın sürətləndirilməsinə xidmət edəcəkdir.

Nəzərdə tutulan infrastruktur inkişafı tədbirləri Xəzər Universitetinin elmi-tədqiqat potensialının gücləndirilməsinə, innovasiya fəaliyyətinin genişləndirilməsinə və universitetin regionda və beynəlxalq miqyasda rəqabətqabiliyyətli akademik mərkəz kimi mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edir.

## 5. Beynəlxalq əməkdaşlıq

Beynəlxalq əməkdaşlıq Xəzər Universitetinin elmi-tədqiqat strategiyasının əsas və strateji əhəmiyyətə malik istiqamətlərindən biri kimi müəyyən edilir. Bu istiqamət universitetin uzunmüddətli inkişaf vizionunda qlobal akademik məkanla sistemli inteqrasiyanın təmin olunmasına, beynəlxalq elmi mühitdə davamlı və fəal iştirakın genişləndirilməsinə, elmi bilik və təcrübə mübadiləsinin daha da dərinləşdirilməsinə və tədqiqat fəaliyyətinin beynəlxalq standartlara tam uyğunlaşdırılmasına yönəlmişdir.

Xəzər Universiteti xarici ölkələrin aparıcı ali təhsil müəssisələri, beynəlxalq tədqiqat mərkəzləri və elmi təşkilatları ilə mövcud əməkdaşlıqların daha da genişləndirilməsini və yeni strateji tərəfdaşlıqların qurulmasını nəzərdə tutur. Bu əməkdaşlıqların əsas istiqaməti birgə elmi-tədqiqat layihələrinin sayının artırılması, multidissiplinar və innovativ tədqiqat təşəbbüslərinin inkişaf etdirilməsi, eləcə də qlobal elmi çağırışlara cavab verən ortaq tədqiqat platformalarının formalaşdırılması olacaqdır.

Universitetin gələcək beynəlxalqlaşma strategiyasında akademik mobilliyin genişləndirilməsi xüsusi prioritet kimi çıxış edir. Bu məqsədlə professor-müəllim heyətinin və tədqiqatçıların xarici universitetlərdə təlim, tədqiqat və akademik mübadilə proqramlarında iştirakının sistemli şəkildə artırılması, eyni zamanda xarici akademik mütəxəssislərin Xəzər Universitetində qonaq tədqiqatçı və müəllim kimi fəaliyyətinin daha geniş şəkildə təşviq edilməsi

planlaşdırılır. Bu yanaşma universitetin elmi mühitinin beynəlxalq təcrübə ilə zənginləşdirilməsinə və müasir tədqiqat metodologiyalarının daha geniş tətbiqinə imkan yaradacaqdır.

Beynəlxalq əməkdaşlıq strategiyası çərçivəsində birgə elmi nəşrlərin hazırlanması, beynəlxalq elmi konfrans və seminarların təşkilinin genişləndirilməsi, eləcə də nüfuzlu akademik jurnallarda ortaq tədqiqat nəticələrinin dərc olunmasının artırılması da əsas hədəflər sırasında yer alır. Bu fəaliyyətlər universitetin beynəlxalq akademik şəbəkələrdə mövqeyinin daha da möhkəmləndirilməsinə və elmi nəticələrin qlobal səviyyədə daha geniş auditoriyaya çatdırılmasına xidmət edəcəkdir.

## 6. Əsas nəticə göstəriciləri (KPI-lar)

Strategiyanın icrası aşağıdakı əsas performans göstəriciləri üzrə ölçülür:

- Beynəlxalq indekslənən elmi nəşrlərin sayı və keyfiyyəti;
- Xəzər Universitetinin "Khazar Journal of Humanities and Social Sciences" elmi jurnalının Scopus bazasına daxil edilməsi və impakt faktorunun artırılması;
- Qrant layihələrinin sayı və cəlb olunan maliyyə həcmi;
- Beynəlxalq əməkdaşlıq layihələrinin və tərəfdaşlıqların sayı;
- Patent və innovasiya məhsullarının göstəriciləri;
- Doktorantura proqramı üzrə göstəricilər (yeni açılmış proqramların sayı, qəbul olan və dissetrtasiya işini müdafiə edən tələbə sayı);
- Doktorantların mübadilə proqramlarında iştirak səviyyəsi;
- Tədqiqat nəticələrinin tətbiq və kommersiyalaşdırma göstəriciləri.

## 7. Risklərin idarə olunması

Strategiyanın icrası zamanı yarana biləcək risklərin idarə olunması məqsədilə aşağıdakı tədbirlər nəzərdə tutulur:

- Maliyyə resurslarının qeyri-sabitliyi riskinin azaldılması üçün alternativ maliyyə mənbələrinin diversifikasiyası;
- Yüksək ixtisaslı kadrların çatışmazlığı riskinə qarşı DP-i ilə xaricdə təhsil alan doktorantlara dəstəyin göstərilməsi;

- Beynəlxalq layihələrdə gecikmə risklərinin azaldılması üçün layihə idarəetmə sistemlərinin təkmilləşdirilməsi;
- Elmi keyfiyyətin aşağı düşməsi riskinə qarşı davamlı şəkildə monitorinqin aparılması.